**“PASHA Yatırım Bankası Anonim Şirketi”**

**Hər birinin nominal dəyəri 1000 (bir min) ABŞ dolları olan 25 000 (iyirmi beş min) ədəd faizli, sənədsiz, adlı, təmin edilməmiş istiqrazların**

# Emissiya Prospekti

**İstanbul, 2024-cü il**

**MÜNDƏRİCAT**

Emissiya prospektinə daxil edilmiş bütün məlumatlara dair məsul olan şəxslərin siyahısı............................... 3
Emissiya prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə məsul şəxslərin bəyanatı....................................... 3
Xülasə.......................................................................................................................................................... 4
1. Xəbərdarlıqlar.......................................................................................................................................... 4
2. Emitent haqqında məlumat...................................................................................................................... 4
3. Qiymətli kağızlar haqqında məlumat...................................................................................................... 12
4. Risk faktorları.......................................................................................................................................... 14
5. Təklif........................................................................................................................................................ 15
6. Əsas məlumat........................................................................................................................................... 18
İstiqrazlar barədə məlumat........................................................................................................................... 20
7. Təklifin şərtləri.......................................................................................................................................... 23
8. "PASHA Yatırım Bankası" A.Ş.................................................................................................................28

** Qeyd*: *Emissiya prospektinin mətnində "PASHA Yatırım Bankası Anonim Şirkəti" - Emitent, "PASHA Yatırılm Bankası A.Ş." və ya Bank adları altında çıxış edir.*

## Emissiya prospektinə daxil edilmiş bütün məlumatlara dair məsul olan şəxslərin siyahısı:

Direktorlar şurasının sədri

**Cəlal Qasımov**

Direktorlar şurasının üzvü

**Şahin Məmmədov**

## Emissiya prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə məsul şəxslərin bəyanatı:

Biz, aşağıda imza edənlər,

Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" ilə tanış olduğumuzu təsdiq edirik;
Bu Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyünü təsdiq edirik.

Direktorlar şurasının sədri

**Cəlal Qasımov**

_______________ **18.03.2024-cü il**

PASHA Yatırım Bankası A.Ş.
Maslak Mahallesi A.O.S. 55 Sokak No:2
42 Maslak Ofis 3 Kat:7 D:205
34398 Sarıyer. İstanbul
Boğaziçi Kurumlar V.D. 940 001 9073
Mersis No: 6855686234861514

Direktorlar şurasının üzvü

**Şahin Məmmədov**

_______________ **18.03.2024-cü il**

## Xülasə

## 1. Xəbərdarlıqlar:

**1.1.** Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

**1.2.** Qiymətli kağızlara investisiya etmək barədə investorun hər hansı bir qərarı emissiya prospektini (informasiya memorandumunu) oxuduqdan sonra həyata keçirilməlidir.

**1.3.** Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

**1.4.** Bu Emissiya Prospektində Emirtentin Türkiyə Respublikasındakı fəaliyyətini əks etdirən göstəricilər Türkiyə lirəsində (və ya TL və ya TRY kimi işarə edilir) qeyd edilib, başqa valyutalar – Azərbaycan Respublikasının manatı (və ya AZN kimi işarə edilir) və ya ABŞ dolları (və ya USD kimi işarə edilir) qeyd edildikdə müvafiq dövr üçün valyuta məzənnələri qeyd edilib.

## 2. Emitent haqqında məlumat:

**2.1. Emitentin tam adı**: "PASHA Yatırım Bankası" A.Ş.

**2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə**:

- Türkiyə Respublikası, PASHA Bank Genel Müdürlük, Sultan Selim Mahallesi, Hümeyra Sokak, PASHA Plaza No:2/7, 34415 Kağıthane / İstanbul
- Anonim Şirket
- Türkiyə Respublikası

PASHA Bank İstanbulda yerləşən baş ofisində fəaliyyət göstərir və heç bir filialı yoxdur.

**2.3. Emitentin nizamnamə kapitalı: 500.000.000 TL (IAS 29 nəzərə alınmaqla dəqiqləşdirilmiş nizamnamə kapitalı 3.424.742.000 TL)**

Əsası 1987-ci ildə Yatırım Bank A.Ş. adı altdın Türkiyədə xarici kapitallı ilk investisiya bankı kimi qoyulmuş PASHA Yatırım Bankası A.Ş. müxtəlif səhmdar qruplarının rəhbərliyi altında fəaliyyət göstərir.

2015-ci ildə Azərbaycanda ən böyük kapitala malik özəl bank – Bakıda yerləşən regional maliyyə institutu olan PAŞA Bank ASC səhmlərin çoxluğun almışdır və bankın rəsmi adı PASHA Yatırım Bankası A.Ş. və işgüzar adı PASHA Bank Türkiyə" (və ya bu Emissiya Prospektində bundan sonra – "Bank" adlandırılacaq) kimi dəyişdirilmişdi.

Bankın majoritar səhmdarı 49% ilə 2018-ci ildə "PAŞA Holding" MMC olmuşdur, Bankın ödənilmiş kapitalı TL 500 milyonadək çatdırılmışdır.

29 dekabr 2023-cü il tarixində "PAŞA Bank" ASC sahibi olduğu 113.748.764 ədəd səhminin "PAŞA Holding" MMC tərəfindən alınması ilə "PAŞA Holding" MMC-nin Bankın nizamnamə kapitalındakı payı 49 faizdən 71,7498 faizıə yüksəlmişdir, "PAŞA Bank" ASC-non payı 28,2093 % olmuşdur.

## 2.4. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib son tendensiyaların təsviri:

Türkiyədə 2023-cü ildə bank tənzimləmə orqanı – BDDK və hökumət tərəfindən bank sektorunun tənzimləməsi dəyişmişdir. PASHA Bank Türkiyəyə təsir edən tənzimləmə dəyişiklikləri aşağıdakılardan ibarətdir:

Ümumi ƏDV-nin səviyyəsi 18%-dən 20%-yə qaldırılmışdır. Bu yeni dərəcə PASHA Bank Türkiyənin iştirak etdiyi maliyyə icarəsi əməliyyatlaırna da təsir etmişdir və müştərilər üçün yeni ƏDV dərəcəsi ilə ödənişlərin həyata keçirilməsi cədvəlləri müəyyən edilmişdir. ƏDV dərəcəsində bu dəyişmə bankımızın aldığı xidmət və malların qiymətlərinə da təsir etdiyindən qiymət artımı yaranmışdır.

Banklar üçün 2023-cü ildə hüquqi şəxslərin mənfəət vergisinin dərəcəsi 25%-den 30%-a qaldırılmışdır. PASHA Bank Türkiyə də bank sektorundakı digər banklar kimi əldə etdiyi gəlirdən 2022-ci ildə daha çox vergi ödəyəcəkdir.

Bütün bu mühüm dəyişikliklərə baxmayaraq PAŞA Bank Türkiyə 2023 ilini hədəflərindən daha yaxşı nəticə göstərərək yüksək mənfəət ilə bitirəcəkdir. Eyni zamanda Türkiyənin bütün bank sektoru da ili uğurlu bitirmişdir.

Türkiyə Banklar Birliyinə verilən hesabatların hələ audit olunmamış məlumatlarına görə: 2023-cü ilin dekabrında Türkiyə Bank Sektorunun aktiv həcmi 23.519.337 milyon TL təşkil etmişdir. Sektorun aktiv həcmi 2022-ci il ilə müqayisədə 9.171.947 milyon TL yəni ki 65% artmışdır. 2023-cü

ilin dekabrında Kreditlər ümumi həcmi 54%, aktivlərin həcmi 67,4% artmışdır. Bu dövrdə kreditlərin könvertasiya əmsalı 1,60% təşkil etmişdir. Bankların maliyyələşmə mənbələri arasında ən böyük mənbəyi depozitlər təşkil etmişdir və 2022-ci ilin sonu ilə müqayisədə 67,6% artmışdır və 14.851.970 milyon TL təşkil etmişdir. 2022-ci ilin sonuna görə kapitalı cəmi 50,9% artaraq 2.121.581 milyon TL təşkil edərkən, 2023-cü ilin dekabrına sektorun dövr üçün xalis mənfəəti 603.634 milyon TL, kapital yetərliliyi əmsalı isə 18,85% təşkil etmişdir.

2023-cü il pandemiya dövründə həyata keçirilən genişlənmə siyasətinin yaratdığı inflyasiya problemi ilə mübarizənin ön plana çəkmişdir. Türkiyə Respublikası Mərkəzi Bankı da siyasət faizlərini artıraraq inflyasiya ilə mübarizə aparır. Bu dövrdə ölkələr monetar siyasətdə sərtləşdirmə tədbirləri ilə yanaşı təklif istiqamətli siyasət də həyata keçirərək iqtisadiyyatların tənəzzülə uğramasının qarşısını almağa çalışırlar.

Türkiyədə 2023-cü ildə keçirilən Prezident seçkilərindən sonra vəzifəyə başlayan yeni iqtisadi administrasiya ölkə iqtisadiyyatı üçün pul və fiskal siyasəti dəyişmişdir. İqtisadiyyatın təklif tərəfini dəstəkləyəcəyi gözlənilən kredit genişləndirilməsi metodunun daxili tələb üzərində həddindən artıq artan təsirləri nəticəsində yaranan yüksək inflyasiya problemi yeni modelin seçilməsinə səbəb olmuşdur. TRMB inflyasiya ilə mübarizə çərçivəsində siyasət faiz dərəcəsini mərhələli şəkildə 42,50%-ə qaldırmışdır. TRMB siyasət faiz dərəcəsini artırmaqla yanaşı, məcburi ehtiyat normalarını da artırıb və kəmiyyət sərtləşdirməsini həyata keçirməyə başlayıb. Eyni zamanda, özəl sektora veriləcək kreditlərin daxili tələbi artırıcı təsirini azaltmağa çalışıb.

Monetar sərtləşdirmə tədbirlərinə baxmayaraq, Türkiyə iqtisadiyyatı dünyada müşahidə olunan orta artımın üzərində artım göstəricisi nümayiş etdirir. Xüsusilə zəlzələ fəlakətindən sonra verilən təşviqlərlə dəstəklənən daxili tələb nəticəsində, inflyasiyanın əmək haqqı, pensiya artımları və dövlət işçilərinin maaşları üzərindəki korroziyaedici təsirini aradan qaldırmaq üçün minimum əmək haqqı artımı nəticəsində artım performansı dünya ortalamasının üzərindədir. Digər tərəfdən, türk lirəsinin xarici valyutalar qarşısında dəyər itirməsi xidmətlər sektorunda, xüsusilə turizmdə artımın dayanmadan artmasına səbəb olub. Xarici tələbata gəlincə, Avropa iqtisadiyyatında, xüsusən də ixracın əhəmiyyətli bir hissəsini təşkil edən Almaniya iqtisadiyyatında baş verən yavaşlama və hətta tənəzzül xarici tələbin iqtisadi artıma töhfəsinə mənfiyə təsir edib . Ona görə də dünya üzrə orta göstəricidən yuxarı artım daxili tələblə bağlıdır.

PASHA Bank Azərbaycan-Gürcüstan-Türkiyə arasında ticarətin dəstəklənməsi və regionda sahibkarlıq investisiyaları üçün vəsaitlər cəlb etməklə və investisiya məsləhətləri təqdim etməklə öz hədəflərinə uyğun korporativ, biznes, premium və investisiya bankçılığı məhsulları vasitəsilə sahibkarlara xidmətlər göstərir,

Bankın əsas səhmdarı “PAŞA Holding” MMC-dən 25 milyon ABŞ dolları (USD) məbləğində subordinasiya krediti alınmışdır. Bu beynəlxalq və uzunmüddətli maliyyələşdirmənin nəticəsi olaraq pandemiya və iqtisadi böhranın dünya və Türkiyədə yaratdığı neqativ hallara baxmayaraq, Bank Türkiyəyə və Banka olan inamını nümayiş etdirmişdir. İkinci dərəcəli kapital xarakteri daşıyan 10 illik müddətli kredit 5-ci ildən sonra erkən ödəmə imkanı ilə əldə edilmişdir. Kredit Bankın pərakəndə və kommersiya müştərilərə təqdim edilən məhsulların inkişaf etdirilməsini maliyyələşdirmə imkanlarını şaxələndirəcək. Beləliklə, Bank ölkəmizin iqtisadiyyatına və real sektora verdiyi töhfəni artıracaq və güclü kapital strukturu ilə innovativ xidmət və məhsulları inkişaf etdirməyə davam edəcəkdir.

PASHA Bank Türkiyə-dən beynəlxalq istiqraz emissiyası

Türkiyə, Azərbaycan və Gürcüstan arasında maliyyə körpüsü olmaq missiyası ilə transsərhəd investisiyaları dəstəkləyən PASHA Bank Türkiyə Azərbaycanın qiymətli kağızlar bazarında ümumi dəyəri 25 milyon ABŞ dolları olan istiqraz emissiyasını reallaşdırıb.

2017-ci ildə Azərbaycan bazarlarında ilk istiqraz buraxan PASHA Bank Türkiyə 2017-ci ildən bu yana yeddisi ABŞ dolları, biri avro ilə olmaqla xarici valyutada cəmi səkkiz istiqraz emissiyası həyata keçirib. Beləliklə, Bank indiyədək təqribən 136 milyon ABŞ dolları məbləğində vəsait cəlb etmişdir.

PASHA Bank kənd təsərrüfatı sektorunda aktivlərlə təminatlı emissiyaları tam sürətlə davam etdirmişdir.

Türkiyədə real sektorun inkişafı və məşğulluğun artırılması üçün əhəmiyyətli olan aktiv təminatlı emissiya sahəsubub lideri olaraq PASHA Bank 2023-ci ildə Tarfin Tarım üçün 800 milyon TL dəyərində aktivlə təmin edilmiş istiqraz emissiyası həyata keçirmişdir. Bank həmçinin pestisidlər sahəsində fəaliyyət göstərən Platin Kimya üçün 50 milyon TL-lik daha bir emissiyanı uğurla həyata keçirib.

2020-ci ildən kənd təsərrüfatı sektorunu dəstəkləyən PASHA Bank bu sahə üçün 1,8 milyard TL-dən çox vəsait cəlb edib.

PASHA Bank Türkiyədə ilk dəfə yeni məhsul təqdim etmişdir: Azərbaycan vətəndaşları üçün ipoteka kreditləri

PAŞA Bank Türkiyə "Qardaş ölkədə qonaq olma, ev sahibi ol" şüarı ilə Azərbaycan vətəndaşları üçün yeni ipoteka məhsulunun təqdimatını Bakıda təşkil etmişdir. Azərbaycan vətəndaşları üçün keçirilən xüsusi tədbirdə Türkiyənin daşınmaz əmlak layihələri təqdim edilmiş və PASHA Bankın ipoteka krediti ilə Türkiyədə ev almağın üstünlükləri izah edilmişdir. Tədbir PAŞA Bank tərəfindən T&A Projects-in əməkdaşlığı ilə təşkil olunmuşdur.

**2.5. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin qrupda olan şəxslərdən asılılığı yoxdur.

**2.6. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

**2.7. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

"KPMG Bağımsız Denetim ve Serbest Muhasebeci Mali Müşavirlik A.Ş." şirkəti tərəfindən Bankın 31 dekabr 2023-ci il tarixinə maliyyə vəziyyətinin auditi aparılmış və Bankın maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izaheasıdici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlaması aparılmışdır. Audit rəyinə əsasən maliyyə hesabatları Bankın 31 dekabr 2023-ci il tarixinə/ maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

Bankın 31 dekabr 2023-cü il tarixinə konsolidə edilməmiş audit hesabatı ilə Bankın veb-səhifəsində tanış olmaq olar. (Türkiyə Respublikasının hesabatlılıq standartlarına uyğun olaraq)

https://www.pashabank.com.tr/en/images/pdf/investor-relations/20240403-q4-2023report.pdf

**2.8. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri (audit olunmuş):**

Cədvəldə qeyd edilən məlumatlar audit edilmiş maliyyə hesabatları əsasında doldurulmuşdur

Bu cədvəldə bütün rəqəmlər min manat ilə ifadə olunmuşdur.

IAS 29 Hiperinflyasiya İqtisadiyyatlarında Maliyyə Hesabatı Bankın maliyyə hesabatlarına tətbiq edilmişdir, çünki bankın funksional valyutası (Türk Lirəsi) IAS 29-a uyğun olaraq hiperinflyasiyalı iqtisadiyyatın valyutasıdır. 2022-ci ildən başlayaraq.

| 2023: 1 AZN=17,2196 2022: 1 AZN=10,9373TRY / 2021: 1 AZN=7.9033 TRY | 31 Dekabr 2023 | 31 Dekabr 2022 | 31 Dekabr 2021 |
|---|---|---|---|
| **Xalis faiz gəliri** | 23,177 | 23,202 | 14,474 |
| **Xalis xidmət haqqı və komissiya gəlirləri** | 7,623 | 5,489 | 1,318 |
| **Digər qeyri-faiz gəlirləri** | 14,157 | 16,225 | 2,956 |
| **Ümumi qeyri-faiz gəlirləri** | -15,258 | -11,755 | -6,822 |
| **Ümumi aktivlər** | 607,834 | 587,653 | 456,661 |
| **Ümumi öhdəliklər** | 498,393 | 493,633 | 378,856 |
| **Ümumi kapital** | 109,441 | 94,020 | 77,805 |
| **Gəlirlər və xərclər** | 11,825 | -1,514 | 6,041 |

### 2.8.1. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından sonra emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat: Dəyişiklik olmamışdır;

### 2.9. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:

PASHA Yatırım Bankası A.Ş. qlobal trendlərə və geosiyasi risklərə baxmayaraq, ildən ilə davam edən bir böyümə və mənfəətlilik nümayiş etdirir. Cəlb edilmiş təminatlı kreditlər və "PAŞAHolding"-nin 2022-ci ildə verdiyi 10 il müddətli 25 milyon ABŞ dolları məbləğindəki subordinasiya krediti ilə Bankın maliyyə vəziyyəti daha da gücləndirilmiştir. Yatırım Bankası A.Ş. həm Türkiyədə maliyyələşmə mənbələri, həm də Azərbaycanda "PAŞA Holding" MMCvə onun törəmə müəssisələrinin dəstəyi ilə güclü bir maliyyələşmə imkanlarına malikdir. Azərbaycanda 2017-ci ildən bəri həyata keçirdiyi ABŞ dolları və Avroda emissiya edilmiş istiqrazların əsas məbləğləri və kupon ödənişləri bu vaxta qədər zamanında həyata keçirilmişdir. Bank xarici valyutadakı aktivlərini əsasən xaricdən götürdüyü orta və uzunmüddətli kreditlər, subordinasiya kreditləri və buraxılmış qiymətli kağızlar hesabına maliyyələşdirir. Bankın türk lirəsi aktivləri əsasən Bankın öz kapitalı, alınan kreditlər və buraxılmış qiymətli kağızlar hesabına maliyyələşdirilir. Bank maliyyələşdirmə strukturunun faiz və ödəmə müddəti baxımından aktiv strukturuna uyğun olmasını təmin etməyi qarşısına məqsəd qoyub. Bank yeni dövrün gətirdiyi rəqəmsallaşma prosesini və sektorda rəqəmsal

transformasiyanı yaxından izləyərək lazımi texnoloji infrastruktur investisiyalarını həyata keçirmişdir. Bank inkişaf edən qlobal və yerli trendlərdə daha rəqabətli yer tutmaq, gəlirliliyi, səmərəliliyi və Türkiyə, Azərbaycan və Gürcüstan arasında qarşılıqlı iqtisadi əlaqələri artırmaq üçün yeni təkliflər yaratmağı davam etdirərək təhlükəsiz və keyfiyyətli texnoloji infrastrukturun inkişafında davamlılığı təmin etməyi hədəfləyirik.

### 2.10. Emitentin əsas fəaliyyətinin təsviri:

- Bank investisiya bankı kimi fəaliyyət göstərir. Bank yerli və beynəlxalq investisiyaların həyata keçirilməsi ilə məşğul olur, müştəriləri sırasında energetika, maliyyə institutları, inşaat-tikinti, Emal sənayesi sahəsində fəaliyyət göstərən çoxlu şirkətlər və təşkilatlar mövcuddur. Hazırda Bank müştərilərə müxtəlif növ bank xidmətləri göstərir: Hesablaşma-Kassa xidməti, Kreditlər, Plastik Kartlar, Valyuta Mübadiləsi, Qiymətli Kağızlarla Əməliyyatlar, Qarantiyalar, Portfel idarəetməsi, Lizinq;
- Türkiyə Respublikasının iqtisadiyyatının və ölkədə bank işininin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına dəstəklik göstərmək;
- Sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;
- Öz vəsaitlərini və cəlb olunmuş vəsaitləri Türkiyə iqtisadiyyatının və Emitentin öz fəaliyyətinin inkişafına yönəltmək;
- Türkiyə Respublikasının Qanunvericiliyinə Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Bank lisenziyasında nəzərdə tutulmuş maliyyə-kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək;
- Türkiyə Respublikasının Qanunvericiliyi və bank lisenziyası ilə müəyyən edilən hüdudlarda Emitent aşağıdakı Bank əməliyyatlarını həyata keçirmək hüququna malikdir:
  - Nağd, qeyri-nağd olan bütün növ kreditlərin verilməsi;
  - Nağd və qeyri-nağd əməliyyatlar, köçürmə əməliyyatları, müxbir bank və ya çeklərdən istifadə daxil olmaqla hər növ ödənişlər və məxaric əməliyyatları;
  - Çek və digər mübadilə veksellərinin nağdlaşdırılması əməliyyatları;
  - Saxlama xidmətləri;
  - Kredit kartları, bank kartları və səyahət çekləri kimi ödəmə vasitələrinin emissiyası və bunlarla əlaqədar fəaliyyətlərinin aparılması əməliyyatları;

- Vayuta mübadilə əməliyyatları, qiymətli kağızların alqı və satqısı, qiymətli metalların və qiymətli daşların alınması, satışı və ya bunların əmanət kimi qoyulması əməliyyatları;
- İqtisadi və maliyyə indekslərinə, qiymətli kağızlara, mala, qiymətli metallara və valyutaya əsaslanan, fyuçers müqavilələrinin, opsion müqavilələrinin, birdən çox törəmə vasitəsini ehtiva edən sadə və ya mürəkkəb quruluşlu maliyyə alətlərinin alınması, satılması və onlara vasitəçilik əməliyyatları;
- Qiymətli kağızların alqı-satqısı ilə geri alınması və ya təkrar satılması üzrə əməliyyatlar;
- Qiymətli kağızların anderraytinqi və ya kütləvi yeləşdirmə yolu ilə satışına vasitəçilik xidmətləri;
- Daha əvvəl emissiya edilmiş olan qiymətli kağızların vasitəçilik məqsədilə alqı-satqısının aparılması əməliyyatları;
- Başqaları xeyrinə təminat, zəmanət və sair öhdəliklərin götürülməsi əməliyyatları kimi zəmanət işləri;
- İnvestisiya məsləhətçiliyi əməliyyatları;
- Portfel idarəçiliyi və əməliyyatları;
- Dövlət xəzinədarlığı və/və ya Mərkəzi Bank və təşkilatların birlikləri nəzdində bağlanan bir müqavilə çərçivəsində öhdəliklər üzrə alqı-satqı əməliyyatlarına bağlı bazar fəaliyyəti;
- Faktorinq və forfeytinq əməliyyatları;
- Banklararası bazarda pul alqı-satqısı əməliyyatlarına vasitəçilik;
- Maliyyə icarəsi (lizinq) əməliyyatları;
- Sığorta agentliyi və fərdi pensiya vasitəçilik xidmətləri;
- Emitentin lisenziyasına, Türkiyə Respublikasının qanunvericiliyinə o cümlədən Türkiyə Respublikası maliyyə bazarlarına nəzarət orqanının qərarlarına zidd olmayan hər hansı digər fəaliyyəti.

**2.11. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:**
Emitentin cari idarə olunması və fəaliyyətinin həyata keçirilməsi üçün Baş direktor məsuliyyət daşıyır. Baş direktor qeyri-məhdud müddətə Bankın Direktorlar Şurası tərəfindən təyin edilir. Baş direktorun müavinləri də Bankın direktorlar şurası tərəfindən təyin oluna bilər. Emitentin ali idarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağıdır (Baş Məclis), Emitentin idarə olunmasına və işinə nəzarəti Direktorlar Şurası (Yönetim Kurulu) həyata keçirir. Direktorlar Şurasının üzvləri

Səhmdarların Ümumi Yığıncağı tərəfindən 3 (üç) il müddətinə seçilirlər. Direktorlar Şurası ən azı 5 (beş) üzvdən ibarətdir.

## 3. Qiymətli kağızlar haqqında məlumat:

**3.1. İstiqrazların növü:** faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlar;

**3.2. İstiqrazların valyutası:** ABŞ dolları

**3.3. İstiqrazların tədavül müddəti:** 18 ay

**3.4. İstiqrazlarla təsbit olunan məhdudiyyətlər:** İstiqrazlar üzrə hər hansı məhdudiyyət(lər) mövcud deyildir

**3.5. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemində qeydiyyata alındığı andan qüvvəyə minir;
- İstiqrazlarla təsdiqlənmiş hüquqları alqı-satqı əqdləri bağlamaq yolu ilə ötürmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 6,19 (altı tam yüzdə on doqquz) faiz məbləğində kupon faiz ödənişləri almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.6. İstiqrazların faiz dərəcəsi (kupon). İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 6,19 (altı tam yüzdə on doqquz) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 18 (on səkkiz) ay müddətində ildə günlərin sayı 360 (üç yüz altmış) və bir ayda günlərin sayı 30 gün olaraq götürülməklə) hər 3 (üç) təqvim ayından bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

**3.7. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.8. İstiqrazların geri satın alınma şərtləri:** İstiqrazların emitent tərəfindən tədavül müddətində geri alınması nəzərdə tutulmamışdır.

**3.9. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazların nominal dəyərindən illik 6,19 (altı tam yüzdə on doqquz) faiz məbləğində kupon faiz ödənişləri həyata keçiriləcəkdir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$\boldsymbol{TF} = \frac{\left(\frac{\boldsymbol{N} * \boldsymbol{D} * \boldsymbol{G}}{\mathbf{360}}\right)}{\mathbf{100}}$$

Burada:

$\boldsymbol{TF}$ – Bir istiqraz üzrə toplanmış faizlər;

$\boldsymbol{N}$ – Bir istiqrazın nominal dəyəri; 1000 (bir min) ABŞ dolları

$\boldsymbol{D}$ – İstiqrazların illik faiz dərəcəsi; 6,19 (altı tam yüzdə on doqquz) faiz

$\boldsymbol{G}$ – İstiqrazlar üzrə son faiz ödənişindən sonra keçən günlərin sayı (bir ayda günlərin sayı 30 kimi əsas götürülür).

**3.10. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların kütləvi yerləşdirilməsi nəzərdə tutulduğundan istiqrazların mülkiyyətçisi yalnız onların yerləşdirilməsindən sonra müəyyən oluna bilər.

**3.11. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.12. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra “Bakı Fond Birjası” QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, abunə yazılışı vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli “fond birjası fəaliyyəti” –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• Dövlət qiymətli kağızları bazarı;

• Korporativ qiymətli kağızlar bazarı;

• Törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 4. Risk faktorları:

### 4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:

İstiqrazları əldə edən şəxs aşağıdakı əsas risklərin mövcud olduğunu bilməli və nəzərə almalıdır:

- Kredit riski – Emitentin istiqrazlar tədavüldə olan müddətdə onlar üzrə faiz ödənişlərinin və müddətin sonunda əsas nominal dəyər üzrə ödənişin həyata keçirə bilməməsi riskidir;
- Faiz dərəcəsi riski – bazar faiz dərəcələrinin yüksəlməsi nəticəsində istiqrazların bazar qiymətinin düşməsi riskidir;
- Valyuta riski – ABŞ dollarının məzənnəsinin investorlar üçün əlverişsiz istiqamətdə dəyişməsi riskidir;
- Əməliyyat riski – ticarət və ödəniş sistemlərində daxili proseslər, sistem pozuntuları, insan faktoru, təbii fəlakətlər və digər bu kimi amillərdən meydana gələn və istiqrazlar üzrə hüquqların tam və vaxtında həyata keçirilməsinə manə ola biləcək risklərdir;
- Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyüdür.

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** İqtisadi kiçilmə, alıcılıq qabliyyətinin aşağı düşməsi və onun satışlar üzərində mənfi təsiri, təbii fəlakətlərin baş verməsi (fors-major hallar), qlobal və yerli rəqabət, qanunvericilikdə emitentin fəaliyyətinə birbaşa və dolayı yolla təsir edə bilən dəyişikliklər.

## 5. Təklif:

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Bankın hal-hazırda əsasən faktorinq əməliyyatlarından ibarət olan portfelinə daxil olan qurumların qısamüddətli dövriyyə kapitalına ehtiyacının maliyyələşdirilməsi üçün emissiya nəticəsində əldə edilən vəsaitdən istifadə ediləcəkdir.

**5.2. Təklifin şərtlərinin təsviri:**

Emissiya edilən istiqrazlar investorlara abunə yazılışı keçirilməklə təklif ediləcək və "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə yerləşdiriləcəkdir. İstiqrazlara abunə yazılışı və onların yerləşdirilməsi müddətləri barədə məlumat aşağıdakı kimidir:

Abunə yazılışı. İstiqrazlara abunə yazılışı nəzarət orqanı (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən istiqrazların buraxılışının dövlət qeydiyyatına alınmasından sonra 3 (üç) iş günü ərzində başlanacaqdır. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayterləri tərəfindən öz veb saytlarında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı dövründə istiqrazları əldə etmək istəyən investor anderrayterlərə müraciət edə bilər.

İstiqrazların yerləşdirilməsi. Abunə yazılışı müddəti bitdiyi tarixdən 5 (beş) iş günü ərzində istiqrazların "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında yerləşdirilməsi başlanacaqdır. Yerləşdirmənin başlanma və başa çatma tarixləri barədə məlumat anderrayterlər tərəfindən öz veb saytlarında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır.

**5.3. Emisiyada iştirak edən şəxslərin maraqları o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:** Maraqların toqquşması ilə bağlı hal mövcüd deyil.

**5.3.1. "Bakı Fond Birjası" QSC:** Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar

bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatların aparılması üçün müvafiq ticarət sistemin təmin edilməsi;

**5.3.2. Milli Depozit Mərkəzi:** Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzi vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

**5.3.3. "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (əsas anderrayter):** 09 mart 2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İSN/L-640/2016 nömrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində əsas anderrayterin vəzifələri aşağıdakılardır:

- İstiqrazların abunə yazılışı dövründə toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- İstiqrazların abunə yazılışı dövründə öz müştərilərindən alış sifarişləri toplamaq;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alqı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

**5.3.4. "ABB-İnvest İnvestisiya Şirkəti" QSC (digər anderrayter):** 18 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İŞ-05 nömrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir.

- İstiqrazların abunə yazılışı dövründə toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- İstiqrazların abunə yazılışı dövründə öz müştərilərindən alış sifarişləri toplamaq;

**5.3.5. "Unicapital İnvestisiya Şirkəti" ASC (digər anderrayter):** 8 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata

keçirilməsi üçün verilmiş İSN/L-30/2016 nömrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir.

- İstiqrazların abunə yazılışı dövründə toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- İstiqrazların abunə yazılışı dövründə öz müştərilərindən alış sifarişləri toplamaq;

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**5.4.1. Vergilər:** Fiziki şəxslər istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10% vergi tətbiq edilir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya Anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Hüquqi şəxslər ödəmə mənbəyində 10% vergidən azaddırlar, lakin vergi qanunvericiliyinə əsasən mənfəət vergisi ödəyəcəklər.

Türkiyə Respublikası Prezidentinin 20 mart 2019-cu il tarixli 842 nömərli qərarına əsasən müddəti 1 ildən 3 ilədək olan istiqrazların faiz ödənişlərindən 3% (üç faiz) mənbədən vergi tutulur.

Azərbaycan və Türkiyə arasında imzalanan İkiqat vergitutmanın aradan qaldırılmasına dair Saziş çərçivəsində bir dövlətdə, həmin dövlətin qanunvericiliyinə uyğun sürətdə də vergiyə cəlb edilə bilər, ancaq faiz əldə edən şəxs həmin faizin faktiki sahibidirsə, bu şəkildə alınacaq vergi faizin məcmu məbləğinin 10 %-dən artıq olmamalıdır (Maddə 11). Bu baxımdan 10% vergi güzəştindən yararlanmaq üçün Azərbaycan Respublikası Vergi orqanlarından yaşayış yerindən şəhadətnamənin əsli və türk dilinə tərcüməsi olan apostil və ya konsulluq tərəfindən təsdiq edilmiş sürətinin təqdim olunması tələb olunur. Bu sənədlərin əsli PAŞA Bank Türkiyəyə göndərildikdən sonra vergi idarəsi tərəfindən təsdiq oluna və müvafiq tərəfə tutulan vergi geri qaytarıla bilər.

**5.4.2. Xərclər:** İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərəcək "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC, "ABB-İnvest İnvestisiya Şirkəti" QSC, "Unicapital İnvestisiya Şirkəti" ASC-yə müraciət etməlidirlər. İnvestorlar aşağıda qeyd edilmiş xərclərin ödənilməsi öhdəliyini daşıyacaqlar:

- əqdin məbləğinin 0.02%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;

- Milli Depozit Mərkəzində "depo" hesabının açılması üçün - investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir);
- Faiz və nominal ödənişləri zamanı bank-köçürmə və nağdlaşdırma xərclər (bankdan asılı olaraq dəyişir).

## İstiqrazlar barədə tələb olunan məlumat:

## 6. Əsas məlumat:

**6.1. Emissiyada iştirak edən şəxslərin maraqları o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:** maraqların toqquşması ilə bağlı hal mövcud deyil.

**6.1.1. "Bakı Fond Birjası" QSC:** Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alğı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatların aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi;

**6.1.2. Milli Depozit Mərkəzi:** Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzi vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

**6.1.3. "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (əsas anderrayter):** 09 mart 2016-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İSN/L-640/2016 nömrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində əsas anderrayterin vəzifələri aşağıdakılardır:

- İstiqrazların abunə yazılışı dövründə toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- İstiqrazların abunə yazılışı dövründə öz müştərilərindən alış sifarişləri toplamaq;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alqı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

**6.1.4. "ABB-İnvest İnvestisiya Şirkəti" QSC (digər anderrayter):** 18 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İŞ-05 nömrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir.

- İstiqrazların abunə yazılışı dövründə toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- İstiqrazların abunə yazılışı dövründə öz müştərilərindən alış sifarişləri toplamaq;

**6.1.5. "Unicapital İnvestisiya Şirkəti" ASC (digər anderrayter):** 8 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İSN/L-30/2016 nömrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir.

- İstiqrazların abunə yazılışı dövründə toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- İstiqrazların abunə yazılışı dövründə öz müştərilərindən alış sifarişləri toplamaq;

**6.2. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:**

Cəlb ediləcək vəsaitlərin aşağıdakı istiqamətlər və nisbətlərdə istifadə olunması planlaşdırılır:

| İstifadə məqsədləri | Ümumi həcmin nisbəti (faizlə) |
|---|---|
| Korporativ müştərilər | 40% |
| İri kommersiya müştəriləri | 40% |
| Maliyyə institutları | 20% |

Bank hazırkı kredit portfelinə və strategiyasına uyğun olaraq, güclü balans strukturlu, yüksək kredit reytinqli və sektorunun aparıcı korporativ və iri kommersiya şirkətləri ilə, həmçinin də maliyyə qurumları ilə iş davam etdirəcəkdir. Bank emissiya nəticəsində əldə edilən vəsaitdən hal-hazırda əsasən faktorinq əməliyyatlarından ibarət olan portfeldə yer alan qurumların qısamüddətli dövriyyə kapitalına ehtiyacının ödənilməsi üçün istifadə edəcəkdir.

**6.3. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərin məbləği və mənbələri:** İstiqrazların yerləşdirilməsi nəticəsində əldə ediləcək vəsait nəzərdə tutulan layihələrin maliyyələşdirilməsi üçün kifayət etmədikdə, Bank bu layihələri digər maliyyə təşkilatlarından əldə edilən kreditlər hesabına maliyyələşdirəcəkdir.

**6.4. Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya Emitentin əsas fəaliyyətinə aidiyyəti olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

**6.5. İstiqrazlar barədə məlumat:**

**6.5.1. Qiymətli kağızların emissiyasını tənzimləyən Azərbaycan Respublikasının qanunları: Bu emissiya prospekti ilə müəyyən edilən istiqraz emissiyası aşağıdakı normativ-hüquqi aktların tələbləri nəzərə alınaraq hazırlanmışdır:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya Prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar".

**6.5.2. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, adlı, sənədsiz istiqrazlar;

**6.6. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı ayrılıqda göstərilməklə):** "PASHA Yatırım Bankası A.Ş." tərəfindən yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat;

| | Yeni buraxılış | Mövcud buraxılışlar |
|---|---|---|
| **Say:** | 25 000 (iyirmi beş min) ədəd | 25 000 (iyirmi min) ədəd |
| **Nominal dəyəri:** | 1000 (bir min) ABŞ dolları | 1000 (bir min) ABŞ dolları |

**6.7. İstiqrazların valyutası:** ABŞ dolları;

**6.8. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer**: Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower);

**6.9. Təklif olunan istiqrazlaın reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazların reytinqi mövcud deyil;

**6.10. İstiqrazlara təsbit olunan hüquqlar onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemində qeydiyyata alındığı andan qüvvəyə minir;
- İstiqrazlarla təsdiqlənmiş hüquqları alqı-satqı əqdləri bağlamaq yolu ilə ötürmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 6,19 (altı tam yüzdə on doqquz) faiz məbləğində kupon faiz ödənişləri almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar;

Yuxarıda qeyd edilən hüquqların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər Azərbaycan Respublikasının müvafiq sahəni tənzimləyən qanunvericilik aktları ilə müəyyən edilir;

**6.11. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi:** İstiqrazlar üzrə kupon gəlirliyi illik 6.19 (altı tam yüzdə on doqquz) faiz təşkil edir;

**6.12. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 6.19 (altı tam yüzdə on doqquz) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 18 (on səkkiz) ay müddətində ildə günlərin sayı 360 (üç yüz altmış) və bir ayda günlərin sayı 30 gün olaraq götürülməklə) hər 3 (üç) təqvim ayından bir ödənilir;

**6.13. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir;

**6.14. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur;

**6.15. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir;

**6.16. Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Emitent tərəfindən həyata keçiriləcəkdir. İstiqrazların tədavül müddəti ərzində Emitent tərəfindən digər ödəniş agenti təyin edildikdə, bu barədə məlumat Emitent və anderrayterin saytında dərc ediləcəkdir;

**6.17. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılacaqdır;

**6.18. İstiqrazların geri satın alınması şərtləri:** İstiqrazların Emitent tərəfindən geri satın alınması nəzərdə tutulmamışdır;

**6.19. Gəlirlik dərəcəsi və onun hesablaşma qaydası:**

İstiqrazların nominal dəyəri üzrə faiz gəlirliyi illik 6.19 (altı tam yüzdə on doqquz) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır;

$$\boldsymbol{TF} = \frac{\left(\frac{\boldsymbol{N} * \boldsymbol{D} * \boldsymbol{G}}{\mathbf{360}}\right)}{\mathbf{100}}$$

Burada:

$\boldsymbol{TF}$ – Bir istiqraz üzrə toplanmış faizlər;

$\boldsymbol{N}$ – Bir istiqrazın nominal dəyəri; 1000 (bir min) ABŞ dolları

$\boldsymbol{D}$ – İstiqrazların illik faiz dərəcəsi; 6.19 (altı tam yüzdə on doqquz) faiz

$\boldsymbol{G}$ – İstiqrazlar üzrə son faiz ödənişindən sonra keçən günlərin sayı (bir ayda günlərin sayı 30 kimi əsas götürülür);

**6.20. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcüd deyil**;**

**6.21. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi nömrəsi və qərarın qəbul etmiş emitentin idarəetmə orqanının adı:** İstiqrazların emissiyası haqqında qərar (2023/87 saylı protokoldan çıxarış) "PASHA Yatırım Bankası A.Ş." Direktorlar Şurası tərəfindən 08 noyabr 2023-ci il tarixində qəbul edilmişdir;

**6.22. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Mövcüd deyil;

**6.23. İstiqraz üzrə gəlirdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:**

**6.3.1.** Fiziki şəxslər istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10% vergi tətbiq edilir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya Anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Hüquqi şəxslər ödəmə mənbəyində 10% vergidən azaddırlar, lakin vergi qanunvericiliyinə əsasən mənfəət vergisi ödəyəcəklər.

Türkiyə Respublikası Prezidentinin 20 mart 2019-cu il tarixli 842 nömərli qərarına əsasən müddəti 1 ildən 3 ilədək olan istiqrazların faiz ödənişlərindən 3% (üç faiz) mənbədən vergi tutulur.

Azərbaycan və Türkiyə arasında imzalanan İkiqat vergitutmanın aradan qaldırılmasına dair Saziş çərçivəsində bir dövlətdə, həmin dövlətin qanunvericiliyinə uyğun sürətdə də vergiyə cəlb edilə bilər, ancaq faiz əldə edən şəxs həmin faizin faktiki sahibidirsə, bu şəkildə alınacaq vergi faizin məcmu məbləğinin 10 %-dən artıq olmamalıdır (Maddə 11). Bu baxımdan 10% vergi güzəştindən yararlanmaq üçün Azərbaycan Respublikası Vergi orqanlarından yaşayış yerindən şəhadətnamənin əsli və türk dilinə tərcüməsi olan apostil və ya konsulluq tərəfindən təsdiq edilmiş sürətinin təqdim olunması tələb olunur. Bu sənədlərin əsli PAŞA Bank Türkiyəyə göndərildikdən sonra vergi idarəsi tərəfindən təsdiq oluna və müvafiq tərəfə tutulan vergi geri qaytarıla bilər.

## 7. Təklifin şərtləri:

**7.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 3 (üç) iş günü qalmış kütləvi informasiya vasitələrində və/və ya "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və/və ya anderrayterlərin saytında investorlara açıqlanacaqdır.

**7.2. Təklifin qüvvədə olduğu müddət ərzində emissiya prospektinə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan

(qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir;

**7.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanacaqdır;

**7.4. İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazlar abunə yazılışı (kütləvi təklif) üsulu ilə yerləşdiriləcəkdir. İstiqrazlar üzrə abunə yazılışı 10 (on) iş günü təşkil edəcəkdir və abunə yazılışının müddəti istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra 3 (üç) iş günü ərzində başlayacaqdır;

**7.4.1. Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması qaydası və müddəti:** Abunə yazılışı müddəti ərzində investorlar tərəfindən verilmiş sifarişlərin geri qaytarılmasına və ya dəyişdirilməsinə yol verilmir. İstiqrazlann yerləşdirilməsindən sonra, abunə yazılışı investorların icra edilməmiş sifarişləri üzrə məbləğ (artıq məbləğ) həmin investora xidmət edən investisiya şirkəti tərəfindən yerləşdirmə müddətinin bitməsi tarixindən etibarən 3 (üç) iş günü ərzində qaytarılacaqdır.

**7.4.2. Abunə yazılışının (investisiya etmək üçün qiymətli kağızların sayına və ya məcmu miqdarına) minimum və/və ya maksimum məbləği:** Təklif edilən istiqrazların minimal satış dəyəri 1000 (min) ABŞ dolları təşkil edəcəkdir. Bu məbləğdən aşağı qiymətə verilən sifarişlərin qəbul edilməsinə yol verilmir. Abunə yazılışı dövründə toplanılan sifarişlərin həcmi taklif edilan istiqrazların həcmindən çox olduğu təqdirdə, yerləşdirmə verilmiş sifarişlərin həcminə uyğun olaraq mütənasib şəkildə həyata keçiriləcəkdir.

**7.5. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazlar abunə yazılışı keçirilməklə yerləşdiriləcəkdir.

**7.6. İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların dəyərinin ödənilməsi qaydası "Qiymətli kağılar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu" və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" ilə tənzimlənir. Yerləşdirmə müddəti ərzində investorlar qiymətli kağızların dəyərini "PAŞA Bank" ASC-də emitentin açılmış müvəqqəti cari hesabına köçürməlidirlər. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən müvəqqəti cari hesabda saxlanılır və

kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyərinin investorlar tərəfindən ödənilməsi haqqında məlumatları aldıqdan sonra qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

**7.7. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər;

**7.8. İstiqrazların satışının başlanması barədə qanunvericiliklə müəyyən edilmiş qaydada investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 3 (üç) iş günü qalmış kütləvi informasiya vasitələrində və/və ya "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və/və ya anderrayterlərin saytında investorlara açıqlanacaqdır və bu barədə investorlara bildiriş göndəriləcəkdir;

**7.9. İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barədə məlumat:** Bir istiqrazın təklif qiyməti 1000 (bir min) ABŞ dolları təşkil edir;

**7.10. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**7.10.1. Vergilər.** Fiziki şəxslər istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10% vergi tətbiq edilir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya Anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Hüquqi şəxslər ödəmə mənbəyində 10% vergidən azaddırlar, lakin vergi qanunvericiliyinə əsasən mənfəət vergisi ödəyəcəklər.

Türkiyə Respublikası Prezidentinin 20 mart 2019-cu il tarixli 842 nömərli qərarına əsasən müddəti 1 ildən 3 ilədək olan istiqrazların faiz ödənişlərindən 3% (üç faiz) mənbədən vergi tutulur.

Azərbaycan və Türkiyə arasında imzalanan İkiqat vergitutmanın aradan qaldırılmasına dair Saziş çərçivəsində bir dövlətdə, həmin dövlətin qanunvericiliyinə uyğun sürətdə də vergiyə cəlb edilə bilər, ancaq faiz əldə edən şəxs həmin faizin faktiki sahibidirsə, bu şəkildə alınacaq vergi faizin məcmu məbləğinin 10 %-dən artıq olmamalıdır (Maddə 11). Bu baxımdan 10% vergi güzəştindən yararlanmaq üçün Azərbaycan Respublikası Vergi orqanlarından yaşayış yerindən şəhadətnamənin əsli və türk dilinə tərcüməsi olan apostil və ya konsulluq tərəfindən təsdiq edilmiş sürətinin təqdim

olunması tələb olunur. Bu sənədlərin əsli PAŞA Bank Türkiyəyə göndərildikdən sonra vergi idarəsi tərəfindən təsdiq oluna və müvafiq tərəfə tutulan vergi geri qaytarıla bilər.

**7.10.2. Xərclər.** İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərəcək "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC, "ABB-İnvest İnvestisiya Şirkəti" QSC, "Unicapital İnvestisiya Şirkəti" ASC-yə müraciət etməlidirlər. İnvestorlar aşağıda qeyd edilmiş xərclərin ödənilməsi öhdəliyini daşıyacaqlar:

- əqdin məbləğinin 0.02%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- Milli Depozit Mərkəzində "depo" hesabının açılması üçün - investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

**7.11. İstiqrazları öhdəlik götürmədən yerləşdirən anderrayterlər barədə məlumat (adı lisenziyası və ünvanı). Xidmət haqqı:**

**7.11.1. Adı:** "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC

**Lisenziyası:** 09 mart 2016-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İSN/L-640/2016 nömrəli lisenziya

**Hüquqi ünvanı:** Bakı şəh., Lev Tolstoy küçəsi, 170

**Faktiki ünvanı:** Bakı şəh., Cəfər Cabbarlı küç, 44, Caspian Plaza 10-cu mərtəbə, AZ1065

**Xidmət haqqı:** Emitent ilə imzalanmış xidmət müqaviləsinə əsasən müəyyən olunacaqdır.

**7.11.2. Adı:** "ABB-İnvest İnvestisiya Şirkəti" QSC

**Lisenziyası:** 18 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İŞ-05 nömrəli lisenziya

**Hüquqi ünvanı:** Bakı şəhəri,Nəsimi rayonu, Nizami küç., ev 67

**Faktiki ünvanı:** Bakı şəhəri,Nəsimi rayonu, Nizami küç., ev 67

**Xidmət haqqı:** Emitent ilə imzalanmış xidmət müqaviləsinə əsasən müəyyən olunacaqdır.

**7.11.3. Adı:** "Unicapital İnvestisiya Şirkəti" ASC

**Lisenziyası:** 08 yanvar 2016-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş 087910 nömrəli lisenziya

**Hüquqi ünvanı:** Bakı şəhəri,Nəsimi rayonu, Nizami küç., ev 67

**Faktiki ünvanı:** Bakı şəhəri, 8 Noyabr prospekti, 15, "Azure" Biznes Mərkəzi 12-ci mərtəbə, ofis 72

**Xidmət haqqı:** Emitent ilə imzalanmış xidmət müqaviləsinə əsasən müəyyən olunacaqdır.

**7.11.4. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxt:** PASHA Yatirim Bankası və anderrayterlər - "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC, "ABB-İnvest İnvestisiya Şirkəti" QSC və "Unicapital İnvestisiya Şirkəti" ASC ilə 31 mart 2024-cü il tarixinəcən imzalanacaq xidmət müqavilələri əsasında.

**7.12. İstiqrazların ticarətə buraxılması və onun tənzimlənməsi:**

**7.12.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə Emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya Prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

**7.12.2. Market meyker(lər) barədə məlumat:** Bazar şərtlərini nəzərə alaraq Emitent istiqrazların likvidliyinin qorunması məqsədi ilə market-meyker təyin edə bilər. Market-meyker təyin edildikdə, bu barədə məlumat Emitentin və "Bakı Fond Birjası" QSC-nin saytında açıqlanacaqdır.

**7.13. Kredit reytinqləri:**

**7.13.1. Reytinq prosesində Emitentin sorğusu və ya Emitentlə əməkdaşlıq nəticəsində Emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** JCR Eurasia Rating, 28 sentyabr 2023-cü il tarixinde PASHA Bank Türkiyə'nin uzunmüddətli milli istiqrazını A+(tr) sabit olaraq müəyyən etmiş, uzunmüddətli valyuta istiqrazını BB, proqnozunu isə neqativ qiymətlədnirmişdir.

## 8. “PASHA Yatırım Bank Anonim Şirketi” barədə məlumat:

**8.1. Emitentin auditorları barədə məlumat:**

**8.1.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İl: | Auditorun adı: | Auditorun ünvanı: | Auditorun üzv olduğu təşkilat: |
|---|---|---|---|
| 2021 | **Güney Bağımsız Denetim ve Serbest Muhasebeci Mali Müşavirlik Anonim Şirketi** | **Maslak Mah. Eski Büyükdere Cad. Orjin Maslak İş Merkezi No: 27 Daire: 57 34485 Sarıyer, İstanbul** | **Ernst & Young Global Limited** |
| 2022 | **Güney Bağımsız Denetim ve Serbest Muhasebeci Mali Müşavirlik Anonim Şirketi** | **Maslak Mah. Eski Büyükdere Cad. Orjin Maslak İş Merkezi No: 27 Daire: 57 34485 Sarıyer, İstanbul** | **Ernst & Young Global Limited** |
| 2023 | **KPMG Bağımsız Denetim ve Serbest Muhasebeci Mali Müşavirlik A.Ş.** | **İş Kuleleri, Kule 3, Kat: 2-9, Levent, 34300, İstanbul** | **KPMG International Limited** |

**8.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son maliyyə ili ərzində auditorun əvəzlənməsi baş verib. Əvəz olunmya səbəb Türkiyə Respublikasının qanunvericiliyinə əsasən auditorun ən azı 7 il sonra əvəz edilməsi tələbidir.

**8.3. Emitent barədə məlumat:**

**8.3.1. Emitentin tam adı təşkilati-hüquqi forması:** “PASHA YATIRIM BANKASI ANONİM ŞİRKETİ”;

**8.3.2.** Emitentin dövlət qeydiyyatının rekvizitləri: “PASHA Yatırım Bankası” 1987-ci ildə “Yatırım Bank A.Ş.” adı ilə qurulduqdan sonra 2015-ci ildən “PASHA Yatırım Bankası” (qeydiyyat nömrəsi - 240320) adı altında fəaliyyət göstərir.

**8.3.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə onun bütün əvvəlki adları təşkilati-hüquqi formaları o cümlədən bu dəyişikliklərin dövlət qeydiyyatı tarixi**: Dəyişiklik olmamışdır.

**8.3.4. Emitentin olduğu yer, poçt ünvanı elektron poçt ünvanı emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Hüquqi ünvan: PASHA Bank Genel Müdürlük, Sultan Selim Mahallesi, Hümeyra Sokak, PASHA Plaza No:2/7, 34415 Kağıthane / İstanbul

Elektron poçt ünvanı : **info@pashabank.com.tr**

İnternet səhifəsi : **www.pashabank.com.tr**

Əlaqə telefonları: Qaynar xətt – +90 212 705 8900

**8.4. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şətləri:** İstiqrazların kütləvi yerləşdirmə ülsulu ilə yerləşdirilməsi dovlət qeydiyyatına alınmasıdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazların buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

**8.5. Emitent biznesinin icmalı:**

**8.5.1. Emitentin əsas fəaliyyət istiqaməti:** Emitentin müstəsna fəaliyyət predmeti bank fəaliyyətidir.

**8.5.2. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:** Milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi öz adından və öz hesabına kreditlərin verilməsi habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi bank qarantiyalarının verilməsi depozit qutularının icarəsi rəqamsal bankçılıq Nizamnaməsində bank lisenziyasında və qanunvercilikdə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olur.

**8.6. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat onların inkişaf statusu:**

**Ölkədaxili Maliyyələşdirmə İstiqraz Emissiyaları**

2016-cı ildə ixtisaslı investorlara satış üsulu ilə ilk bank maliyyələşdirmə vekselini buraxan PAŞA Bank Türkiyə, 2023-cü ilində ölkədaxili istiqrazlarının emissiyası fasiləsiz davam etmişdir. 2023-cü ildə cəmi 510 milyon TL həcmində istiqraz emissiya etmiş və hər il olduğu kimi strateji hədəflərinə uyğun bu sahədə böyümə müşahidə olunmuşdur. Türkiyə Kapital Bazarları Şurasının 13 noyabr

2022-ci il tarixli icazəsinə uyğun olaraq, yerli veksel emissiyalarının rəf qeydiyyatı 500 milyon TL-dən 1 milyard TL-yə yüksəldilib. 2023-cü ildə PAŞA Bank Türkiyə əvvəlki illərdə əldə etdiyi investor müxtəlifliyini zənginləşdirməyi və yeni və diversifikasiya olunmuş emissiyalarla kapital bazarlarında tanınmasını davam etdirməyi hədəfləyir.

**Avrobond (Xarici İstiqraz) Emissiyaları**

Bank Azərbaycan bazarı üçün 5 il müddətinə (cəmi 25 milyon ABŞ dollar məbləğində) olan ilk avrobond emissiyasını 2017-ci ildə ABŞ dollarında reallaşdırıb. 2019-cu ildə Bank Avro ilə ilk avrobond buraxaraq Azərbaycanda uğurlu həyata keçirib.

2023-cü ildə 11.550.000 ABŞ dolları məbləğində son avrobond emissiyası ilə Bankın cəlb etdiyi vəsaitlər cəmi 133.000.000 ABŞ dollar və 3,3 milyon Avroya çatmışdır.

Bank növbəti illərdə də ən sərfəli gəlir dərəcələri və şərtlərlə avrobond emissiyaları vasitəsilə bu sahədə kapital bazarı əməliyyatlarını davam etdirəcək.

**Aktivlərlə təmin edilmiş istiqraz emissiyaları**

Bank Aktivlərlə təmin edilmiş istiqraz emissiyaları ilə Türkiyə kapital bazarlarında lider olmuş və son üç ildə bu sahədə 2,1 milyard TL-dən çox ümumi satış həyata keçirmişdir. Müştərilər üçün hazırlanmış bu məhsulun arxasında çoxsaylı zəmanət strukturu və investorlar üçün vəsaitlərinin cəlbedici geri ödənilmə imkanı var. Bu əməliyyatlar vasitəsilə Bank real sektor üçün maliyyə mənbələri təmin etməklə yanaşı, həm də xüsusi zəmanətlərlə ixtisaslı investorlara yüksək gəlirlilik üstünlükləri təqdim edir.

Özəl sektorun borc alətləri bazarını inkişaf etdirmək məqsədi ilə PAŞA Bank 2021-ci ildə də emissiya əməliyyatlarında vasitəçilik etmək üçün 2020-ci ildə yaradılmış Aktivlərin Maliyyələşdirilməsi Fondları vasitəsilə müxtəlif şərtlərlə aktivlərə təmin edilmiş qiymətli kağızların emissiyasını davam etdirmişdir.

PAŞA Bank 2023-ci ildə müxtəlif sənaye sahələri üçün və fərqli şərtlərlə 10 aktivlə təminatlı qiymətli kağız buraxaraq emissiya həcmini 958 milyon TL-yə çatdırdı və Bank bundan sonra da real sektoru və kapital bazarlarını investorları ilə bir araya gətirməkdə fəal rol oynamağa qərarlıdır.

Kənd təsərrüfatı və nəqliyyat sektorunda fəaliyyət göstərən, keyfiyyətli aktivlərə malik olan, lakin sərfəli şərtlərlə maliyyələşmə imkanı olmayan 3 müxtəlif şirkətin bu cür əməliyyatlar vasitəsilə emissiyasına vasitəçilik edən PAŞA Bank kapital bazarları vasitəsilə vəsaitlərin əldə edilməsi prosesini uğurla yekunlaşdırıb. Bank xüsusilə mövcud bazar şəraitində kənd təsərrüfatı sektorunun

kapital bazarlarından vəsait təmin edilməsində aparıcı qurum kimi öz yerini tutaraq mühüm çatışmazlığın aradan qaldırılmasında aparıcı rol oynamışdır.

PAŞA Bank Türkiyədə inkişaf etmiş kapital bazarı əməliyyatlarının sürətinin artırılmasını dəstəkləyir və 2024-cü ildə müxtəlif sektorlardakı korporasiyalar üçün vəsait əldə etmək üçün aktivlərlə təmin edilmiş qiymətli kağızların buraxılışında vasitəçiliyi davam etdirəcəkdir.

**Azərbaycan vətəndaşları üçün ipoteka kreditləri**

Təkcə kommersiya sahəsində deyil, həm də pərakəndə satış sahəsində birinci bank olmağı hədəfləyən PAŞA Bank 2022-ci ildə Azərbaycan vətəndaşları üçün ipoteka "Qardaş ölkədə qonaq olma, "Ev sahibi ol" şüarı ilə kredit məhsulunu təklif etməyə başladı.

**Layihələrin maliyyələşdirilməsi kreditləri**

Çətin bazar şərtlərinə baxmayaraq, PAŞA Bank yeni layihələrin maliyyələşdirilməsində, mövcud obyektlərin imkanlarının genişləndirilməsində, müxtəlif sənaye sahələrində, xüsusilə də enerji və turizm sahələrində yenilənmə və modernləşdirmə investisiyalarında iştirakını davam etdirmişdir.

**Birləşmə və qovuşmaların maliyyələşdirilməsi**

PAŞA Bank 2023-ci ildə birləşmə və qovuşmalar sahəsində də fəaliyyət göstərib. Nəticədə, PAŞA Bank, o cümlədən layihə maliyyələşdirməsi və birləşmə və qovuşmaların maliyyələşdirilməsini əvvəlki illə müqayisədə payını 75% artırıb.

**Təchizatçıların maliyyələşdirilməsi**

Likvidliyin idarə edilməsinin son dərəcə kritik olduğu bir ili başa vurduğumuz üçün, PAŞA Bank müxtəlif məhsul və xidmət təchizatçılarına pul vəsaitlərinin hərəkəti ehtiyaclarını tez bir zamanda ödəyə biləcəkləri alternativ ucuz maliyyə mənbəyi yaradaraq hər miqyasda imkan yaratmışdır.

**Ticarət debitor borclarının maliyyələşdirilməsi**

PAŞA Bank 2023-ci ildə müştərilərinin kommersiya əməliyyatları nəticəsində yaranmış və ya yaranacaq debitor borclarını ödəmə müddətindən əvvəl maliyyələşdirmək əməliyyatlarının davamlılığı üçün sürətli maliyyələşdirmə imkanlarını təqdim etməyə davam etmişdir.

**Forfeytinq**

PAŞA Bank 2023-ci ildə ixracatçı şirkətlərin likvidlik ehtiyaclarını ödəmək üçün ixrac əməliyyatlarından hələ ödənilməmiş debitor borclarını geri qaytarılmadan Banka köçürməklə maliyyələşdirməni davam etdirmiş və artırmışdır.

**Lizinq**

PAŞA Bank strategiyasına uyğun olaraq 2023-ci ildə şirkətlərin daşınmaz əmlaklarını maliyyə ehtiyaclarını ödəmək üçün müəyyən müddətə Banka təhvil verməklə, Satış və Geri İcarə əməliyyatlarında vasitəçilik fəaliyyətini fasiləsiz olaraq davam etdirmişdir.

**Regional bankçılıq**

PAŞA Bank "Türkiyə-Azərbaycan-Gürcüstan" arasında iqtisadi münasibətlər sahəsində və bu regionda fəaliyyət göstərən və ya fəaliyyət göstərməyi planlaşdıran şirkətlər üçün "Regionda ilk ağla gələn bank" olmaq məqsədinə uyğun olaraq 2023-ci ildə "Qrup bankı" və törəmə şirkətləri ilə sinerjini davam etdirmiş və artırmışdır. Sahib olduğu regional əməkdaşlıq imkanları və innovativ perspektiv və yanaşma dəstəyi ilə Bank bu regionda ticarət və ticarətin maliyyələşdirilməsində payını sürətlə artırmağa nail oldu və bu sahədə yeni müştərilərin qazanılmasında çox yaxşı bir ili geridə qoydu.

**8.7. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib son tendensiyaların təsviri:**

Türkiyədə 2023-cü ildə bank tənzimləmə orqanı – BDDK və hökumət tərəfindən bank sektorunun tənzimləməsi dəyişmişdir. PASHA Bank Türkiyəyə təsir edən tənzimləmə dəyişiklikləri aşağıdakılardan ibarətdir:

Ümumi ƏDV-nin səviyyəsi 18%-dən 20%-yə qaldırılmışdır. Bu yeni dərəcə PASHA Bank Türkiyənin iştirak etdiyi maliyyə icarəsi əməliyyatlaırna da təsir etmişdir və müştərilər üçün yeni ƏDV dərəcəsi ilə ödənişlərin həyata keçirilməsi cədvəlləri müəyyən edilmişdir. ƏDV dərəcəsində bu dəyişmə bankımızın aldığı xidmət və malların qiymətlərinə da təsir etdiyindən qiymət artımı yaranmışdır.

Banklar üçün 2023-cü ildə hüquqi şəxslərin mənfəət vergisinin dərəcəsi 25%-den 30%-a qaldırılmışdır. PASHA Bank Türkiyə de bank sektorundakı digər banklar kimi əldə etdiyi gəlirdən 2022-ci ildə daha çox vergi ödəyəcəkdir.

Bütün bu mühüm dəyişikliklərə baxmayaraq PAŞA Bank Türkiyə 2023 ilini hədəflərindən daha yaxşı nəticə göstərərək yüksək mənfəət ilə bitirəcəkdir. Eyni zamanda Türkiyənin bütün bank sektoru da ili uğurlu bitirmişdir.

Türkiyə Banklar Birliyinə verilən hesabatlarınməlumatlarına görə: 2023-cü ilin dekabrında Türkiyə Bank Sektorunun aktiv həcmi 23.537.421 milyon TL təşkil etmişdir. Sektorun aktiv həcmi 2022-ci il ilə müqayisədə 9.193.093 milyon TL yəni ki 64% artmışdır. 2023-cü ilin dekabrında Kreditlər ümumi həcmi 54%, aktivlərin həcmi 67,4% artmışdır. Bu dövrdə kreditlərin könvertasiya əmsalı 1,60% təşkil etmişdir. Bankların maliyyələşmə mənbələri arasında ən böyük mənbəyi depozitlər təşkil etmişdir və 2022-ci ilin sonu ilə müqayisədə 67,6% artmışdır və 14.851.970 milyon TL təşkil etmişdir. 2022-ci ilin sonuna görə kapitalı cəmi 50,9% artaraq 2.121.581 milyon TL təşkil edərkən, 2023-cü ilin dekabrına sektorun dövr üçün xalis mənfəəti 603.634 milyon TL, kapital yetərliliyi əmsalı isə 18,85% təşkil etmişdir.

PASHA Bank Türkiyə-Azərbaycan-Gürcüstan arasında ticarətin dəstəklənməsi və regionda sahibkarlıq investisiyaları üçün vəsaitlər cəlb etməklə və investisiya məsləhətləri təqdim etməklə öz hədəflərinə uyğun korporativ, biznes, premium və investisiya bankçılığı məhsulları vasitəsilə sahibkarlara xidmətlər göstərir,

Bankın əsas səhmdarı PAŞA Holdinq MMC-dən 25 milyon ABŞ dolları (USD) məbləğində subordinasiya krediti alınmışdır. Bu beynəlxalq və uzunmüddətli maliyyələşdirmənin nəticəsi olaraq pandemiya və iqtisadi böhranın dünya və Türkiyədə yaratdığı neqativ hallara baxmayaraq, Bank Türkiyəyə və Banka olan inamını nümayiş etdirmişdir. İkinci dərəcəli kapital xarakteri daşıyan 10 illik müddətli kredit 5-ci ildən sonra erkən ödəmə imkanı ilə əldə edilmişdir. Kredit Bankın pərakəndə və kommersiya müştərilərə təqdim edilən məhsulların inkişaf etdirilməsini maliyyələşdirmə imkanlarını şaxələndirəcək. Beləliklə, Bank ölkəmizin iqtisadiyyatına və real sektora verdiyi töhfəni artıracaq və güclü kapital strukturu ilə innovativ xidmət və məhsulları inkişaf etdirməyə davam edəcəkdir.

**PASHA Bank Türkiyə-dən beynəlxalq istiqraz emissiyası**

Türkiyə, Azərbaycan və Gürcüstan arasında maliyyə körpüsü olmaq missiyası ilə transsərhəd investisiyaları dəstəkləyən PASHA Bank Türkiyə Azərbaycanın qiymətli kağızlar bazarında ümumi dəyəri 25 milyon ABŞ dolları olan istiqraz emissiyasını reallaşdırıb.

2017-ci ildə Azərbaycan bazarlarında ilk istiqraz buraxan PASHA Bank Türkiyə 2017-ci ildən hazırki tarixədək yeddisi ABŞ dolları, biri avro ilə olmaqla xarici valyutada cəmi səkkiz istiqraz emissiyası həyata keçirib. Beləliklə, Bank indiyədək təqribən 136 milyon ABŞ dolları məbləğində vəsait cəlb etmişdir.
PASHA Bank Türkiyə kənd təsərrüfatı sektorunda aktivlərlə təminatlı emissiyaları tam sürətlə davam etdirmişdir.
Türkiyədə real sektorun inkişafı və məşğulluğun artırılması üçün əhəmiyyətli olan aktiv təminatlı emissiya sahəsubub lideri olaraq PASHA Bank Türkiyə 2023-ci ildə Tarfin Tarım üçün 800 milyon TL dəyərində aktivlə təmin edilmiş istiqraz emissiyası həyata keçirmişdir. Bank həmçinin pestisidlər sahəsində fəaliyyət göstərən Platin Kimya üçün 50 milyon TL-lik daha bir emissiyanı uğurla həyata keçirib.
2020-ci ildən kənd təsərrüfatı sektorunu dəstəkləyən PASHA Bank Türkiyə bu sahə üçün 2 milyard TL-dən çox vəsait cəlb edib.

**PASHA Bank Türkiyədə ilk dəfə yeni məhsul təqdim etmişdir: Azərbaycan vətəndaşları üçün ipoteka kreditləri**
PAŞA Bank Türkiyə "Qardaş ölkədə qonaq olma, ev sahibi ol" şüarı ilə Azərbaycan vətəndaşları üçün yeni ipoteka məhsulunun təqdimatını Bakıda təşkil etmişdir. Azərbaycan vətəndaşları üçün keçirilən xüsusi tədbirdə Türkiyənin daşınmaz əmlak layihələri təqdim edilmiş və PASHA Bank Türkiyə-nin ipoteka krediti ilə Türkiyədə ev almağın üstünlükləri izah edilmişdir. Tədbir PAŞA Bank Türkiyə tərəfindən T&A Projects-in əməkdaşlığı ilə təşkil olunmuşdur.

2023-cü il pandemiya dövründə həyata keçirilən genişlənmə siyasətinin yaratdığı inflyasiya problemi ilə mübarizənin ön plana çəkmişdir. Türkiyə Respublikası Mərkəzi Bankı da siyasət faizlərini artıraraq inflyasiya ilə mübarizə aparır. Bu dövrdə ölkələr monetar siyasətdə sərtləşdirmə tədbirləri ilə yanaşı təklif istiqamətli siyasət də həyata keçirərək iqtisadiyyatların tənəzzülə uğramasının qarşısını almağa çalışırlar.

Türkiyədə 2023-cü ildə keçirilən Prezident seçkilərindən sonra vəzifəyə başlayan yeni iqtisadi administrasiya ölkə iqtisadiyyatı üçün pul və fiskal siyasəti dəyişmişdir. İqtisadiyyatın təklif tərəfini dəstəkləyəcəyi gözlənilən kredit genişləndirilməsi metodunun daxili tələb üzərində həddindən artıq artan təsirləri nəticəsində yaranan yüksək inflyasiya problemi yeni modelin seçilməsinə səbəb

olmuşdur. TRMB inflyasiya ilə mübarizə çərçivəsində siyasət faiz dərəcəsini mərhələli şəkildə 45%-ə qaldırmışdır. TRMB siyasət faiz dərəcəsini artırmaqla yanaşı, məcburi ehtiyat normalarını da artırıb və kəmiyyət sərtləşdirməsini həyata keçirməyə başlayıb. Eyni zamanda, özəl sektora veriləcək kreditlərin daxili tələbi artırıcı təsirini azaltmağa çalışıb.

Monetar sərtləşdirmə tədbirlərinə baxmayaraq, Türkiyə iqtisadiyyatı dünyada müşahidə olunan orta artımın üzərində artım göstəricisi nümayiş etdirir. Xüsusilə zəlzələ fəlakətindən sonra verilən təşviqlərlə dəstəklənən daxili tələb nəticəsində, inflyasiyanın əmək haqqı, pensiya artımları və dövlət işçilərinin maaşları üzərindəki korroziyaedici təsirini aradan qaldırmaq üçün minimum əmək haqqı artımı nəticəsində artım performansı dünya ortalamasının üzərindədir. Digər tərəfdən, türk lirəsinin xarici valyutalar qarşısında dəyər itirməsi xidmətlər sektorunda, xüsusilə turizmdə artımın dayanmadan artmasına səbəb olub. Xarici tələbata gəlincə, Avropa iqtisadiyyatında, xüsusən də ixracın əhəmiyyətli bir hissəsini təşkil edən Almaniya iqtisadiyyatında baş verən yavaşlama və hətta tənəzzül xarici tələbin iqtisadi artıma töhfəsinə mənfiyə təsir edib . Ona görə də dünya üzrə orta göstəricidən yuxarı artım daxili tələblə bağlıdır.

**Emitentin rəqabət apardığı əsas bazarların təsviri və son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin qruplaşdırılması:**

PAŞA Bank Türkiyə investisiya bankı olaraq Azərbaycan vətəndaşlarına korporativ kommersiya kreditləri, layihələrin maliyyələşdirilməsi, lizinq kreditləri, xəzinədarlıq əməliyyatları, istiqraz və veksellərin emissiyasında vasitəçilik, ipoteka kreditləri verir və onun əsas gəlir mənbələri faiz və komissiya gəlirləridir.
IFRS-ə uyğun audit hesabatlarımızda göstərildiyi kimi, aşağıdakı cədvəldə gəlir mənbələrinin bölgüsü ətraflı şəkildə göstərilir.

**000 AZN**

| | |
|---|---|
| **2023** | 17,2196 |
| **2022** | 10,9373 |
| **2021** | 7,8013 |

| Korporativ və kommersiya bankçılığı | Xəzinədarlıq və aktiv öhdəliklərinin idarə edilməsi | Cəmi |
|---|---|---|

| | | | |
|---|---|---|---|
| **31 Dekabr 2023** | | | |
| Cəmi aktivlər | 342,982 | 264,852 | 607,834 |
| Cəmi öhdəliklər | 63,245 | 435,148 | 498,393 |
| | 0 | 0 | 0 |
| **31 Dekabr 2023** | 0 | 0 | 0 |
| Xalis faiz gəliri | 43,807 | -20,630 | 23,177 |
| Kreditlər üzrə ehtiyatlar və digər kredit riskləri, xalis | 892 | -1,248 | -356 |
| Xalis xidmət haqqı və komissiya gəliri | 8,209 | -586 | 7,623 |
| Cəmi qeyri-faiz gəliri | 1,616 | 12,541 | 14,157 |
| Cəmi qeyri-faiz xərcləri[1] | 0 | -35,258 | -35,258 |
| **Vergidən öncə mənfəət/(zərər)** | **54,524** | **-45,181** | **9,342** |
| Mənfəət vergisi | -2,919 | 5,402 | 2,482 |
| **İlin sonuna xalis mənfəət/(zərər)** | **51,604** | **-39,780** | **11,825** |

